**UOT 82**
**https://doi.org/10.59849/2218-4783.2025.2.218**

**XANƏLİ KƏRİMLİ**

## NAXÇIVAN POEZİYASINDA MİLLİ VƏ BƏŞƏRİ MOTİVLƏR

*Məqalə Azərbaycan poeziyasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan poeziyasında milli və bəşəri motivlərin tərənnümünə həsr edilmişdir. Qarşıya qoyulan problem Naxçıvan ədəbi mühitinin yetirdiyi Müzəffər Nəsirli, Hüseyn Razi, Əliyar Yusifli, Vaqif Məmmədov, Həsənəli Eyvazlı, Elbəyi Maksudov və digər şairlərin yaradıcılığı fonunda elmi həllini tapmışdır. Məqalədə xüsusi olaraq vurğulanır ki, bəşəriliyə gedən yol millilikdən, milli düşüncədən keçir. Milli olmayan ədəbiyyat bəşəri ola bilməz. Məqalənin əvvəlində bəşəri duyğularla bağlı H.Cavid, S.Vurğun, N.Xəzri, M.Araz, X.R.Ulutürk yaradıcılığından gətirilən nümunələr məqalənin ümumi məzmununu, ideya istiqamətini müəyyənləşdirən açar rolunu oynayır.*

**Açar sözlər:** *millilik, bəşərilik, poeziya, mənəvi dünya, xəlqilik, vətənpərvər, özünüdərk, fəlsəfi fikir.*

Hər bir milli ədəbiyyat həm də bəşəri ədəbiyyatdır. Çünki ədəbiyyatın başlıca qayəsi insana və insanlığa xidmətdir. Böyük rus ədəbiyyatşünası, tənqidçisi V.Q.Belinskinin sözləri ilə desək, milli olmayan bəşəri ola bilməz.

Fəlsəfə tarixində bir çox hallarda bəşəriliklə kosmopolitizmi ya qarşı-qarşıya qoyurlar, ya da “eyniləşdirməyə” cəhd edirlər. Bəşərilik kosmopolitizm deyil. Əgər, sadə dillə desək, kosmopolitizm irqindən, cinsindən, milliyyətindən və yaşadığı coğrafi şəraitdən asılı olmayaraq hamını bir əxlaqda, düşüncədə, həyat və yaşam tərzində görmək istəyidirsə, bəşərilik hər bir milləti (yaxud da fərdi) əsrlər boyu qazandığı əxlaqi, mənəvi dəyərlərə hörmətlə yanaşmaq prinsipidir. Məlumdur ki, dünyəvi əxlaqi, mənəvi dəyərlər arasında oxşarlıqlar mövcud ola bilər, lakin eyniyyətlik mümkün deyil. Bəşərilik, qeyd etdiyimiz kimi, milli əxlaqi, mənəvi dəyərlərə əsaslanan, hər bir milli dəyərləri dəyərləndirməyə üstünlük vermək mədəniyyətidir.

Naxçıvan elmi-ədəbi mühiti bir çox hallarda bütöv Azərbaycan elmi-ədəbi mühiti daxilində bölgə elmi-ədəbi mühiti kimi dəyərləndirilsə də, tarixi inkişaf nöqteyi-nəzərindən yanaşanda Naxçıvan özlüyündə özünəməxsus ənənəsi, əxlaqi, mənəvi dəyəri olan ayrıca bir elmi-ədəbi mühitdir ki, bu mühitin təkcə Azərbaycanda deyil, tarixən Yaxın və Orta Şərq kontekstində ayrıca yeri və nüfuzu olan yaradıcılıq məkanı kimi dəyərləndirilib. Hələ orta əsrlərdə Naxçıvanın yetirdiyi Bayrək Quşçuoğlu, Mirzə Sadıq Ordubadi, Ziyayi Ordubadi, Hatəmbəy Ordubadi, Munis Mirzə Zeynalabdin Ordubadi [8, s. 412-415] (bu silsiləyə həyatının və fəaliyyətinin mühüm bir hissəsi, bilavasitə, Naxçıvanla bağlı olan Fəzlullah Nəimini, Məhəmməd Hinduşah Naxçıvanini, Baba Nemətulla Naxçıvani, Nəsrəddin Tusini də daxil etsək) kimi görkəmli simalar nəinki Azərbaycan, eləcə də, qeyd etdiyimiz kimi, Yaxın və Orta Şərqdə kontekstində təqdir olunan görkəmli elm və ədəbi nümayəndələr idi.

Akademik İsa Həbibbəyli “Ədəbiyyatda azərbaycançılıq konsepsiyası və dövrləşmə təsnifatı” [1] adlı ciddi tədqiqat xarakterli məqaləsində ədəbiyyatımızın bir sıra problemlərindən və gələcək perspektivlərindən danışarkən millilik və bəşərilik motivlərinə toxunaraq yazır: “Millilik və bəşərilik, azərbaycançılıq və birlik ideyaları, habelə, yüksək bədiilik Azərbaycan ədəbiyyatının əsas xüsusiyyətləridir.”

Akademik İ.Həbibbəylinin bu qənaətinin təsdiqi üçün çox da qədimlərə yox, elə XX əsr Azərbaycan ədəbiyyatının bir neçə görkəmli sənətkarların bəşəri duyğularla süslənmiş misralarına diqqət etmək kifayətdir ki, Azərbaycan ədəbiyyatının başlıca qayəsinin, amal və məqsədinin nədən ibarət olduğu aydınlaşsın:

Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur yer üzünü.

H.Cavid.
Yüksəl, fəqət insanlığa pis gözlə baxanlar,
Dünyada bir ad qoysa da, insan ola bilməz.
S.Vurğun.
Mənə bircə ovuc gül toxumu ver,
Səpim bu dünyanın hər tərəfinə.
X.R.Ulutürk.
Dünyada nə qədər sevən ürək var,
Mənim ürəyimdir, mənim ürəyim.
N.Xəzri.
Bütün vəzifələr,bütün qanunlar,
İnsana,insana xidmət üçündü.
M.Araz.

Bu kimi bəşəri duyğu və düşüncələri tərənnüm edən nümunələrin sayını istənilən qədər artırmaq da olar, ancaq, el demişkən, dəniz suyunun tamını bilmək üçün bütövlükdə dənizi içməyə ehtiyac yoxdur.

Naxçıvan ədəbi mühiti də, poeziyası da yüksək milli və bəşəri dəyərlərə söykənən və bu dəyərləri özünün amalına çevirən bir poeziyadır. Təkcə ötən əsrin 50-ci illərindən bu yana nəzər salsaq, görərik ki, Müzəffər Nəsirli, Hüseyn Razi, Əliyar Yusifli, Adil Qasımov, Kəmalə Ağayeva, Elman Həbib, Vaqif Məmmədov, Əbülfəz Muxtaroğlu, Həmid Arzulu, Zeyqəm Vüqar, Sərdar Zeynal, Muxtar Qasımzadə, Həsənəli Eyvazlı, Elbəyi Maksudov, Məmməd Tahir, Asim Yadigar və onlarla digər şairlərin yaradıcılığı imkan verir ki, bu mövzuda geniş araşdırma işi aparaq.

Tarixi qaynaqlar da sübut edir ki, Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bəşər mədəniyyətinin ilkin inkişaf etdiyi məkanlardan biridir. Dünyanın qlobal mədəni həyatında nə qədər "iqlim dəyişkənliyi" baş verirsə, o dəyişkənlik, təbbi ki, Naxçıvan elmi-ədəbi, mədəni mühitində də baş verir. Xüsusilə, inqilablar əsri kimi tarixə düşən XX əsrin son on illiyi bəşəri sivilizasiyanın dəyişkən illəri kimi sona çatması dünyaya yeni mizan, yeni düzən gətirdi: ölkələr arasında, demək olar ki, sərhədlər götürüldü, lakin insani münasibətlərdə böyük uçurumlar, keçilməz sədlər yarandı. Bu duyğuları poeziyamızda ilkin duyan Azərbaycanın xalq şairi Məmməd Araz 1991-ci ildə yazdığı məşhur "Ya rəbbim, bu dünya sən quran deyil" adlı şeirini yazdı və bu qənaətə gəldi ki, "İnsandan insana körpümüz sınıb". İnsandan insana körpülərin sındığı, yandırıldığı bir zamanda nə millilikdən, nə də bəşərilikdən danışmaq məqamı deyil. Millilik və bəşərilik ideyaları yalnız insani münasibətlərin humanizm, insanpərvərlik düşüncələrinin inkişaf etdiyi bir zamanda həyata keçirilmək imkanı qazanır. Buna görə də fərddən topluma, insandan bəşəriyyətə gedən yol heç də duşunüldüyü qədər asan yol deyildir. Lakin ədəbiyyat, bədii təfəkkür daima insanda insanlıq duyğularını oyatmağa xidmət etdiyindən bu dünyəvi düşüncə, bəşəri humanizm geniş mənada ədəbiyyatın, incəsənətin, mədəniyyətin üzərinə düşür.

Ədəbiyyatın, incəsənətin cəmiyyətin və ümumən bəşəriyyətin taleyində oynadığı rol, təbii ki danılmazdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Qloballaşma dağıdıcı fəsadları ilə ictimai həyatımıza daxil olur, milli əsasları bir növ sarsıdır. Gənc nəslin milli ruhda böyüməsinə ciddi fikir verməliyik. Milli ruhun təməlində milli ənənələr, milli musiqi, ədəbiyyat və ana dili durur" [2].

Doğrudan da, bu gün bəşəriyyətə ilk baxışda cəlbedici görünən qloballaşmanın dağıdıcı qüvvəsi daha çoxdur, nəinki insanlar arasında tarixən yaranmış mənəvi dəyərləri qoruyub saxlamaq və inkişaf etdirmək amalı. Buna görə də bir daha M.Arazın "insandan insana körpümüz sınıb" misrasını yenidən xatırlatmaq yerinə düşərdi. Bəlkə də, bu misra qədər qloballaşmanın əsl mahiyyətini açan ikinci bir bədii nümunə tapmaq çətin olardı.

Bütün bunlara rəğmən, bu, bir həqiqətdir ki, insanlar arasında ən böyük mənəvi körpü maddi dəyərlərdən çox mənəvi dəyərlərdir ki, bunun da yolu ədəbiyyatdan, incəsənətdən, bütövlükdə mədəniyyətdən keçir. Bu məsul və şərəfli vəzifənin həyata keçirilməsində Naxçıvan poeziyasının da özünəməxsus rolu vardır.

Naxçıvan ədəbi mühitinin XX əsrin 40-50-ci illərində yetirdiyi Müzəffər Nəsirli, Hüseyn Razi, Əliyar Yusifli, Kəmalə Ağayeva, Elmira Qasımova, Adil Qasımov kimi şairlərin yaradıcılığı, təbii ki sovet ideologiyası çərçivəsində inkişaf edirdi. Ancaq buna baxmayaraq, bu şairlərin ümumi yaradıcı-lığına nəzər salanda aydın olur ki, onların yaradıcılığının ümumi qayəsi sovet ideologiyasından çox, milli-mənəvi dəyərlər fonunda inkişaf edən yaradıcılıqdır. Bu da onların mənsub olduğu xalqa, millətə və vətənə bağlılıqlarından irəli gəlirdi. Necə ki, Hüseyn Razi 1965-ci ildə yazdığı "Tapar məni" şeirində deyirdi:

Öz yurduma vurulmuşam,
Giləlǝnib durulmuşam.
Bu ocaqda yanar daşam,
Bacarırsan qopar məni [6, s. 18].

Şairlik kimi xəlqi olmaq, vətəni, milləti sevmək anadan gəlmə bir hiss və qarşısı alınmaz bir duyğudur. Vaxtilə V.Q.Belinski də bu barədə yazırdı: "...Ədib və şairlərdə xəlqilik də yaradıcılıq qabiliyyəti kimi bir istedaddır. Əgər şair ola bilmək üçün şair doğulmaq lazım isə, öz şəxsiyyətilə öz vətəndaşlarının səciyyəvi xüsusiyyətlərini ifadə edə bilmək üçün xəlqi olaraq doğulmaq lazımdır" [3, s. 96] və müəllif fikrinə davam edir: "İnsanı xəlqi edən onun təbiətidir. Təbiətinizdə bu olmadıqda isə nə qədər əlləşsəniz də xəlqi ola bilməyəcəksiniz" [13, s. 96].

Naxçıvan ədəbi mühitinin yetirdiyi görkəmli nümayəndələrindən biri də uzun müddət Naxçıvan ədəbi mühitinə rəhbərlik etmiş şair-dramaturq Müzəffər Nəsirlidir (1911-1980). Şairin ayrı-ayrı illərdə "Mənim respublikam" (1958) "Yanar üfüqlər" (1968),"Əsgər toqqası" (1973),"İki ürək" (1974), "Qaynar bulaq" (1978) "Oqni nad Araksom" (1974) adlı şeir və poemalar kitabları nəşr edilmişdir. O, eyni zamanda qələmini dramaturgiya sahəsində də sınamış və "Azadlıq günəşi", "Qanlı qanunlar" (1920-30-cu illər), "Qönçəbəyimin nəğməsi", "Dürdanə", "Qırmızı geyimli qız", "Məhəbbət qocalmır" kimi dram əsərləri yazmışdır.

M.Nəsirlinin şeirlərinin ümumi ahənginə baxanda yaxın keçmişimizin aydın mənzərəsini görmək o qədər də çətin deyil. Onun yaradıcılığının mühüm hissəsi, təbii ki, sovet ideologiyasının "köynəyindən" çıxmışdı. Biz bu müşahidəmizi irad kimi yox, mövcud ideologiyanın tələbi kimi dəyərləndiririk. Lakin şairin 60-cı illərdə qələmə aldığı "Dostluq" şeirinin nümunəsində biz həyat həqiqətinin bariz təzahürünü görürük. Dörd bəndlik bu şeirdə bəşəri düşüncənin təməli olan insan mənəviyyatının əsl təzahürünü görürük:

Dostluqdur həmişə ən ülvi qüvvət,
Ürəkdən ürəyə aparır xəbər.
Onun polad kimi möhkəmliyini –
Dostunu dar gündə sınayan bilər [9, s. 15].

Şairin "Leninin əməlləri", "Veteranlar nəğməsi", "Ayıq olun,ey insanlar", "İnsanın səsi", "Yaxşılıq", "Krım torpağında" (silsilə şeirlər) və bu kimi onlarla şeirlərində M.Nəsirli sovet şairindən çox, milli düşüncəli, bəşəri sevdalı bir sənətkar kimi diqqəti çəkir. Adını çəkdiyimiz "Krım torpağında" şeir silsiləsinə daxil olan "Salam, Sevastopol!" şeirində oxuyuruq:

...Gəlmişəm qarşında səcdə etməyə,
Salam, Sevastopol, qəhrəman şəhər!
Qoynunda uyuyan qəhrəmanlara
Bir ana olmusan, mehriban şəhər! [10, s. 50]

Hüseyn Razinin(1924-1998) müxtəlif illərdə qələmə aldığı "Vətən eşqi", "Ağrı dağı", "Qardaş", "Sevgi", "Anamla söhbət", "Səni ellər xatırlayır", "Böyük ustad", "Ölməzdir", "Oder sahi-

lində", "Öz günahım" kimi şeirlərində dünyanın hər dərdini, narahatçılığını ürəyindən keçirən nigaran bir qəlbin çırpıntıları duyulmaqdadır.

"Vətən eşqi" şeirində şair dünyanın bir parçası olan Vətəninə qırılmaz tellərlə bağlılığından danışdıqca, həm də geniş mənada dünyaya o sevgi hissini də ön plana çəkir. O, bir vətəndaş qələm adamı kimi bu ideyanın təbliğatçısıdır ki, böyük dünyanı sevmək, qorumaq hissi, kiçik Vətəni sevmək duyğusundan qanadlanır:

Sevək bu torpağı gözümüz təki,
Sevən ürəklərin odu sönməsin.
Şəhid babaların böyük məsləki,
Kişilik qeyrəti ləkələnməsin [6, s. 8].

Yaradıcılığının, demək olar ki, başlıca qayəsi vətənpərvərlik duyğuları ilə süslənmiş Əliyar Yusiflinin(1929-1993)."Dağlar yaraşığı", "Səni xatırlayıram", "Səni tapacağam", "Bənövşə ətri" adlı kitablarında toplanmış şeirlərində insani dəyərlər daha çox diqqəti çəkir. İllərdir ədəbi prosesimizin ağırlığını çiyinlərində daşıyan ədəbiyyatşünas alim Vaqif Yusifli "Bir Əliyar Yusifli vardı..."adlı məqaləsində haqlı olaraq bu qənaətə gəlir ki: "Əliyar Yusifli həssas ürəkli, yeri gələndə kövrələn, göz yaşlarını axıdan bir şair olub" [5].

Bu yerlər qıy vuran qartal yeridir,
Dostlar qonaq gəlsin qoy dəstə-dəstə.
Bu qədim Naxçıvan gül buketidir,
Məğrur bir Vətənin qolları üstə.

Şairin Naxçıvanla bağlı yazdığı şeirindən gətirdiyimiz bu bir bəndlik nümunə özlüyündə əsas verir deyək ki, bu şeir təkcə müəllifin yaradıcılığında deyil, ümumən Naxçıvan haqqında yazılan şeirlər içərisində daha çox diqqəti cəlb edən şeirdir.

Yeni dövr poeziyamızın əsas yaradıcılarından olan Vaqif Məmmədovun, Elman Həbibin, Həsənəli Eyvazlı, Sərdar Zeynalın, Zeyqəm Vüqarın, Asim Yadigarın, Qafar Qəribin, Məmməd Tahirin, Hüseyn Bağıroğlunun, Təranə Arifqızının, Elxan Yurdoğlunun və başqalarının yaradıcılığında yeni dövrün çalarlarını görmək olar.

Ədəbiyyata ötən əsrin 60-70-ci illərində gələn və ilk qələm təcrübələri ilə elmi-ədəbi mühitin diqqətini çəkən Vaqif Məmmədov (1948-2016) yaradıcılığında yeni dünyanın ab-havasına meyllilik daha çox hiss olunmaqdadır. Akademik İsa Həbibbəyli V.Məmmədovla bağlı yazdığı "Vaqifanə ömrün anları" məqaləsində şairin elmi-pedaqoji fəaliyyətindən və bədii yaradıcılığının xüsusiyyətlərində danışarkən bir fakta xüsusi önəm verir: "Naxçıvanın yaradıcı qüvvələri və müəllimləri, həm də tələbə yoldaşları Vaqif Məmmədovda cavan yaşlarından müdriklik qabiliyyəti görürdülər. O, insanlar arasında, ədəbi mühitdə tarazlıq yaradır, münasibətlərin gərginləşməməsinə yol verməməyə çalışırdı. ...Naxçıvanda ədəbi mühitin normal məcrada inkişafında və o dövrün ədəbi qüvvələri arasında sağlam münasibətlərin formalaşmasında Vaqif Məmmədovun özünəməxsus xidmətləri olmuşdur" [13, s. 10].

Şairin "Sözlü, nəğməli diyar" adlı 8 misralıq (şeiri 4 misralıq da etmək olar və biz də 4 misralıq şəklində təqdim edirik) bir şeiri var və bu şeiri kitabın tərtibçisi düz edərək kitaba epiqraf olaraq verib. Bu şeiri, bir növ qədim və həmişə-yaşar Naxçıvanın mənəvi pasportu da saymaq olar:

Bərəkət hopubdur hər qarışına,
Duz dağın min ildi duzu tükənmir.
Naxçıvan çatsa da beş min yaşına,
Nəğməsi tükənmir, sözü tükənmir [12, s. 3],

M.Araz Azərbaycan dünyasından dünyaya baxdığı kimi, V.Məmmədov poeziyasının baş qəhrəmanı da Naxçıvandan dünyaya baxan vətən oğlu idi.

Naxçıvan ədəbi mühitində şair-dramaturq kimi tanınan Həsənəli Eyvazlı (1950) bir sıra şeir kitablarının ("Bu köç hara gedir", "Nədir bu sevgini yaşadan belə", "Ömür yarpaqları", "Ömrün

payız duyğuları", "Lal sulara ay düşər") müəllifidir. Onu bir qələm adamı kimi, yaxşı mənada, qələmdaşlarından fərqləndirən doğulub boya-başa çatdığı kənd mühiti, el-oba havası, adət-ənənələri ilə bağlılığıdır. H.Eyvazlının da şeirlərində humanizm, insan və təbiət, insanın cəmiyyətdəki fəal mövqeyi daha çox diqqəti cəlb etməkdədir. Bu mənada yanaşanda şairin bir çox şeirlərində, o cümlədən çağdaş oxucuların da kövrək duyğularının ifadəsinə çevrilən "Ata ocağına qonaq gəlmişəm" şeirində insanın nostalji duyğularının bədii ifadəsini görürük:

Ata ocağına qonaq gəlmişəm,
Qapıdan paslı bir qıfıl asılıb.
Sükutdan boğulan həyət-bacamız
İnsan nəfəsinə tamarzı qalıb.

Hayana baxıram, izim görünür,
Əlimin qabarı qalıbdı burda.
Körpəlik illərim, gənclik çağlarım,
Qəlbimin qübarı qalıbdı burda [7, s. 45],

Şeirdən gətirilən bu kövrək duyğular təkcə bir şair qəlbini deyil, elindən, obasından uzaq düşən, qismətimizə qara yazı kimi yazılan qaçqınlıq, köçkünlük, didərginlik taleyi yaşayan hər birimizin içini göynədən duyğulardır. Düzdür, H.Eyvazlı qaçqınlıq, köçkünlük həyatını fakt olaraq yaşamayıb, amma bir şair kimi, bir vətəndaş kimi başı daşdan-daşa dəyən millətinin taleyinə biganə qala bilməyib. Onun ata ocağı o taylı, bu taylı, Qərbi Azərbaycanlı bütöv bir Azərbaycandır. O Azərbaycan ki, M.Araz demişkən, "hər daşından alov dilli ox ola bilər".

Həsənəlinin şeirləri sanki onun tərcümeyi-halıdır. Buna görə də hər bir qələm adamının yaradıcılığını dəyərləndirərkən onun nəsil şəcərəsini, özünəməxsus tərcümeyi-halını bilmək gərəkdir. H.Eyvazlı, belə demək mümkünsə, poeziyamızın torpağın alt qatından öz gücünə göyərib pöhrələyən və hər budağından zamanın ağır yükü asılan şirin meyvəli bar ağacıdır.

Pedaqoji elmləri doktoru, Azərbaycanın Əməkdar müəllimi, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, Naxçıvan MR-in ilk Dövlət mükafatçısı, "Ürək bir dünyadır", "Sözlər də insan kimidir" poetik kitabların müəllifi, Naxçıvan Dövlət Universitetinin professoru Elbəyi Sadıq oğlu Maqsudov (1955-2018) təkcə Naxçıvan elmi-ədəbi mühitində deyil, bütöv Azərbaycan elmi-ədəbi mühitində tanınan, imzası olan fikir və düşüncə adamı idi. Tərəddüd etmədən demək olar ki, E.Maqsudov kimi hərtərəfli inkişaf etmiş ziyalı şəxsiyyətlər çox az-az yetişirlər. İstedadlı tədqiqatçı alim, filologiya üzrə fəlsəfə doktoru, dosent Aypara Behbudova böyük zəhmət bahasına ərsəyə gətirdiyi "Professor Elbəyi Maqsudov xatirələrdə" kitabına çox dəyərlə yazdığı "Ön söz" də həssas dəqiqliklə bir xarakteristika verir: "Elbəyi müəllim Allahın ona verdiyi ömür payını əsl kişilərə layiq yaşadı, özündən sonra şərəfli bir ad qoyub getdi. Bu cür şərəfli ömür yaşayan insanları gələcək nəsillərə tanıtmaqsa, bizim müqəddəs borcumuzdur" [11, s. 11].

E.Maqsudovun şeirləri bir çox hallarda didaktik məzmun daşısa da, şeirlərindəki milli düşüncə, milli duyğu daha çox diqqəti cəlb etməkdədir. Şairin Xalq şairi, milli istiqlal mücahidi Söhrab Tahirə ithaf etdiyi "Böyük azadlıqlar şairinə", Türkiyənin Fırat Universitetinin rektoru, professor Feyzi Bingölə ünvanladığı "Sən böyük insan", "Bütövlük sorağında", "Salam,Qarabağ" və s. Şeirlərində insani dəyərlər, bəşəri humanizm motivləri şairin xarakterinin göstəricisi kimi mənalıdır:

Biz böyük dünyada bütöv bir canıq,
Bir qolumuz azad,biri buxovlu.
Əgər doğrudan da Azərbaycanıq,
Gərək azad edək o biri qolu [4, s. 54].

"Böyük azadlıqlar şairinə" şeirindən gətirdiyimiz bu nümunələrdə bir Vətən həsrəti, Vətən göynəltisi duyulmaqla yanaşı, həm də yüz illərlə qolu bağlı qalan, azadlığı həsrətlə gözləyən məmləkətimizin bir parçasında köləliyin zəncirini qırmaq üçün bir çağırış da var – "Zənciri gəmirib

qırasan gərək”. Bu çağırış təkcə şairin öz milləti, xalqı üçün deyil, demək olar ki, məhkumluq həyatı yaşayan, daim azadlıq üçün ayağa qalxan dünya xalqları üçün də edilən çağırış kimi mənalı və diqqətəlayiqdir.

Akademik İsa Həbibbəyli E.Maqsudovla bağlı yazdığı “İntellektual düşüncəyə malik ziyalı” məqaləsini aşağıdakı notlarla bitirir: “Alim-şair Elbəyi Maqsudov Azərbaycan elmini və şeirini həm ölkəmizdə, həm də xarici ölkələrdə layiqincə təmsil etmişdir. İntellektual düşüncəyə malik Azərbaycan ziyalısı, əsl pedaqoq və orijinal şair kimi Elbəyi Maqsudov xatirələrdə yaşayacaq” [11, s. 14].

Təbii ki, kiçik bir məqalədə çoxşaxəli, zəngin Naxçıvan ədəbi mühitinin, xüsusən də, ötən əsrin əllinci illərindən sonra ədəbiyyata gələn onlarla qələmdaşlarımızın hamısının yaradıcılığına mövzu ilə bağlı müraciət etmək imkan xaricində olsa da, adlarını çəkdiyimiz şairlərin yaradıcılığından gətirdiyi-miz nümunələr əsasında apardığımız araşdırmalar göstərdi ki, “millilik və bəşərilik” problemi poeziyamızın dünən olduğu kimi, bu gün də başlıca problemlərindən biridir.

## ƏDƏBİYYAT

1. “525-ci qəzet”, 2018, 22 sentyabr.
2. “525-ci qəzet”, 2015, 1 aprel.
3. Belinski V.Q. Seçilmiş əsərləri. Bakı: Uşaq-gənc nəşr, 1948, 250 s.
4. Maqsudov E. Sözlər də insan kimidir. Bakı: Azərbaycan, 2007, 80 s.
5. “Ədalət” qəz., 2024, 2 avqust.
6. Razi H. Gözün aydın. Bakı: Azərbaycan, 1996, 228 s.
7. Eyvazlı H. Lal sulara ay düşər. Naxçıvan: Əcəmi, 2020, 168 s.
8. Həibbəyli İ. Nuhçıxandan – Naxçıvana. Bakı: Elm və təhsil, 2015, 846 s.
9. Nəsirli M. İki ürək (şeirlər və poemalar). Bakı: Azərnəşr, 1974, 152 s.
10. Nəsirli M. Qaynar bulaq (şeirlər və poemalar), Bakı: Yazıçı, 1978, 180 s.
11. Professor Elbəyi Maqsudov xatirələrdə. Naxçıvan: Əcəmi, 2023, 312 s.
12. Vaqif Məmmədov xatirələrdə. Bakı: Elm və təhsil, 2017, 356 s.
13. Məmmədov V. Seçilmiş əsərləri: 5 cilddə. III c., Bakı: Elm və təhsil, 2018, 284 s.

***Naxçıvan Dövlət Universiteti***
***E-mail: xanelikerimli@gmail.com***

**Hanali Kerimli**

## NATIONAL AND HUMAN MOTIVES IN THE NAKHCHIVAN POETRY

The article is dedicated to the glorification of national and humanistic motifs in Nakhchivan poetry, which is an integral part of Azerbaijani poetry. The problem posed has found a scientific solution against the background of the creativity of Muzaffar Nasirli, Huseyn Razi, Aliyar Yusifli, Vagif Mammadov, Hasanali Eyvazli, Elbeyi Maksudov and other poets who were born in the Nakhchivan literary environment. The article specifically emphasizes that the path to humanity passes through nationality and national thought. Non-national literature cannot be humane. The examples from the creativity of H.Javid, S.Vurgun, N.Khazri, M.Araz, X.R.Uluturk given at the beginning of the article regarding human emotions play a key role in determining the general content and ideological direction of the article.

**Keywords:** *nationality, humanity, poetry, spiritual world, people's spirit, patriotic, self-awareness, philosophical thought.*

**Ханали Керимли**

## НАЦИОНАЛЬНЫЕ И ОБЩЕЧЕЛОВЕЧЕСКИЕ МОТИВЫ В НАХЧЫВАНСКОЙ ПОЭЗИИ

Статья посвящена рассмотрению национальных и общечеловеческих мотивов в нахчыванской поэзии, которая является неотъемлемой частью азербайджанской поэзии. Поставленная проблема нашла свое решение на фоне творчества Музаффара Насирли, Гусейна Рази, Алияра Юсифли, Вагифа Мамедова, Гасанали Эйвазлы, Эльбейи Максудова и других поэтов, находившихся под влиянием литературной среды Нахчывана. В статье особо подчеркивается, что путь к человечности проходит через национальность и национальное мышление. Не национальная литература не может быть общечеловеческой. Приведенные в начале статьи примеры из произведений Х.Джавида, С.Вургуна, Н.Хазри, М.Араза и Х.Р.Улутюрка, касающиеся человеческих эмоций, играют ключевую роль в определении общего содержания и идейной направленности статьи.

**Ключевые слова:** *национальность, человечность, поэзия, духовный мир, народность, патриотичный, самосознание, философская мысль.*

*(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 18.06.2025**
**Son variant 14.07.2025**